Təhsil naziri Misir Mərdanov görüşdə bildirib ki, ölkəmizdə 3 ildir "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələri keçirilir. Nazir "Ən yaxşı müəllim" müsabiqəsi üzrə sənədləri ekspertizadan keçmiş müəllimlərin II mərhələdə müəyyən olunmuş qaydaya görə Bakı şəhərinin seçilmiş məktəblərində sınaq dərsi deyəcəklərini qeyd edib. Həmin məqsədlə Bakı şəhərində 26 məktəbin seçildiyini nəzərə çatdıran Misir Mərdanov məlumat verib ki, bu il müsabiqəyə 460 nəfər sənəd verib, onlardan 203 nəfəri müsabiqənin II və III mərhələsində iştirak etmək hüququ qazanıb. Nazir əlavə edib ki, fənlər üzrə təsnifata görə iştirakçılardan 47-si ibtidai sinif, 40-ı ingilis dili, 19-u tarix, 17-si Azərbaycan dili və ədəbiyyat, 16-sı riyaziyyat, 12-si coğrafiya, 10-u biologiya, 8-i fizika, 7-si informatika, 7-si rus bölməsində rus dili, 6-sı kimya, 5-i fiziki tərbiyə, 4-ü alman dili, hər birindən 1 nəfər olmaqla fransız dili, Azərbaycan bölməsində rus dili, əmək hazırlığı, təsviri incəsənət, musiqi müəllimləridir. Təhsil naziri sınaq dərslərinin 20-23 aprel tarixlərində keçirilməsinin nəzərdə tutulduğunu qeyd edib.

Misir Mərdanov hər bir fənn üzrə sınaq dərslərinin keçirilmə tarixi və yeri barədə söz açaraq, məktəb direktorlarına sınaq dərslərinin keçirilməsinə hərtərəfli şərait yaradılması və bu işin mütəşəkkil təşkil olunmasına dair tapşırıqlar verib.